DÖVLƏT VERGİ XİDMƏTİ

# Elektron qaimə-fakturalar üzrə bunları bilməlisiniz!

**Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, 01.01.2026-cı il tarixindən etibarən**

Beynəlxalq daşıma, müntəzəm və daimi əsaslarda göstərilən xidmətlər və avans ödənişləri üzrə elektron qaimə-fakturaların təqdim edilmə müddətləri dəyişdirilmişdir.

**Nə dəyişdi?**

Dəyişiklikdən əvvəl işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə qaimə-fakturalar **5 gün** müddətində təqdim edilirdi.

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

**Dəyişiklikdən sonra (01.01.2026-cı il tarixindən etibarən):**

- Beynəlxalq daşıma xidmətləri üzrə – elektron qaimə-faktura daşıma xidmətlərinin başlanıldığı vaxtadək təqdim edilməlidir.
- Müntəzəm və daimi əsaslarda göstərilən xidmətlər üzrə – hər təqvim ayı üçün xidmətlərin göstərilməsinə başlanıldığı vaxtadək təqdim edilməlidir,
- Avans ödənişləri üzrə dəyişiklikdən əvvəl elektron qaimə-fakturalar avansın alındığı gün təqdim edilirdi. Dəyişiklikdən sonra avansın alınıb-alınmamasından asılı olmayaraq elektron qaimə-faktura avansın alındığı vaxtadək təqdim edilməlidir.

**BAKI — 2026**